1 noyabr Milli Məclisə seçkilər günüdür

# Təbliğat kampaniyası davam edir

(Əvvəli 3-cü səhifədə).

Təbliğat kampaniyası çərçivəsində Yeni Azərbaycan Partiyasının və Milli Məclisə deputatlığa namizəd Fəttah Heydərovun Milli Məclisə seçkilər üzrə səlahiyyətli nümayəndəsi, Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatının sədri Abil Ağasəfovun, Yeni Azərbaycan Partiyasının Milli Məclisə deputatlığına namizədliyini dəstəklədiyi Fəttah Heydərovun vəkillərinin Vəndam qəsəbəsi, Bunud, Həzrə, Məmmədağalı, Nohurqışlaq, Tüntül, Yengicə kəndləri seçiciləri ilə görüşləri keçirilmişdir.





Vəndam qəsəbəsində keçirilən görüşü Yeni Azərbaycan Partiyasının Milli Məclisə seçkilər üzrə səlahiyyətli nümayəndəsi, Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatının sədri Abil Ağasəfov açmışdır.

Bildirmişdir ki, 1 noyabr 2015-ci ildə Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək seçki kampaniyası uğurla davam edir. Oktyabr ayının 9-dan seçki kampaniyasının təbliğat-təşviqat mərhələsi başlanmışdır. Seçicilər müstəqillik əldə etdiyimizdən sonrakı bütün seçkilər kimi bu seçkilərə də böyük maraq göstərirlər. Bu təsadüfi deyil Azərbaycan Respublikasında Milli Məclisə 20 il bundan öncə keçirilən seçkilərdən sonra ölkəmiz çox böyük inkişaf yolu keçmiş, iqtisadiyyat yüksəlmiş, insanların rifah halı müqayisə edilməz dərəcədə yaxşılaşmışdır.

Söz Milli Məclisə deputatlığa namizəd Fəttah Heydərun vəkili Qabil Qasımova verilmişdir. Qabil Qasımov deputatlığa namizəd Fəttah Heydərovun tərcümeyi-halı, keçdiyi böyük və zəngin həyat yolu və fəaliyyəti barədə seçicilərə məlumat vermişdir. Bildirmişdir ki, Fəttah Heydərov artıq 4 çağırış bizim Milli Məclisdə deputatımız olmuşdur. O öz işini təkcə deputat kimi qanunların hazırlanması prosesinə həsr etməklə kifayətlənməmiş, rayonun, o cümlədən Vəndam qəsəbəsinin sosial-iqtisadi problemlərinin həll edilməsində fəal iştirak etmişdir. Nəticədə Vəndam qəsəbəsi 20 ildə təsəvvürə gəlməyəcək dərəcədə gözəlləşmiş, abadlaşmış, yeni iş yerləri açılmışdır. Qəsəbə başdanbaşa qazlaşdırılmış, qəsəbənin şimalına gedən 6 kilometrlik yol asfaltlanmışdır. Qəsəbə ətrafında çoxsaylı turist obyektləri, aqrokomplekslər yaradılmışdır ki, bu da qəsəbədə işsizliyin aradan qaldırılmasına kömək etmişdir. Qəsəbənin mərkəzindən keçən magistral yolun ətrafı abadlaşdırılmış köhnə tikililər yeni müasir tikililərlə əvəz edilmişdir. Qəsəbədəki məktəblər o cümlədən 150-yə qədər yaşı olan respublikada tanınan Vəndam qəsəbə 1 saylı tam orta məktəbi əsaslı təmir olunmuşdur. Qəsəbədə keçirilən elə bir tədbir olmaz ki, Fəttah Heydərov orada iştirak etməsin. Burada böyükdən kiçiyə hamı Fəttah Heydərovu öz yaxın adamı, sirdaşı kimi tanıyır hörmət edir.

Namizədin vəkili Qüdrət Səmədov çıxış edərək bildirdi ki, Milli Məclisin deputatlığına namizəd Fəttah Heydərov ümummilli lider Heydər Əliyevin yaxın silahdaşı olub. Nəinki Qəbələdə, bütün Azərbaycanda sabitliyin sakitliyin, əsl işgüzar mühitin yaradılmasında o bir ağsaqqal kimi yaxından iştirak edir. O təkcə Milli Məclisdə təmsil etdiyi Qəbələ rayonunun deyil, bütün Azərbaycanın problemlərinin qaldırılması və həll olunması üçün iş aparır. Sonda bütün seçicilər seçkilərdə fəal iştiraka dəvət olundu.

Bunud kəndində seçicilərlə deputatlığa namizəd Fəttah Heydərovun vəkilləri ilə keçirilən görüşdə də seçicilərin fəallığı hiss olunurdu. Deputatlığa namizədin səlahiyyətli nümayəndəsi Abil Ağasəfov təbliğat görüşünün əsas məqsədini bildirdikdən sonra Fəttah Heydərovun vəkilləri Qabil Qasımov və Qüdrət Səmədov vəkili olduqları namizədin həyat və fəaliyyətini, bu ərazidən deputat seçildiyi dövrdə gördüyü işləri seçicilərə xatırlatdılar və seçki günü seçkilərdə fəal iştirak etməyə, təmsil etdikləri namizədə səs verməyə çağırdılar.

Rayonun Nohurqışlaq kəndi bütünlüklə qazlaşdırılmış, Tüntül və Yengicə kəndlərinin qazlaşdırılması sürətlə aparılır. Yengicə kəndində böyük «Yengicə» istisu sanatoriya istirahət-müalicə kompleksi tikilib istifadəyə verilmişdir. Burada Yengicədən və ətraf yaşayış məntəqələrindən 150 nəfərdən çox adam işlə təmin olunmuşdur.

Bu kəndlərin seçiciləri ilə keçirilən təbliğat yığıncağında qeyd olundu ki, bütün bu işlərin görülməsində Milli Məclisin deputatı Fəttah Heydərovun rolu böyükdür. Fəttah müəllim demək olar ki, hər ay bu kəndlərdə olur, seçicilərlə görüşür, onların arzu və təkliflərini öyrənir və yerinə yetirilməsinə kömək göstərir. Çıxış edənlər bütün seçicilərin fikrini çatdıraraq bildirdilər ki, Nohurqışlaq, Tüntül və Yengicə kəndlərinin seçiciləri seçkilərdə fəal iştirak edəcək, Milli Məclisdə bu günə qədər də onları layiqincə təmsil etmiş Fəttah Heydərova səs verəcəklər.





* * *

116 saylı Qəbələ seçki dairəsindən Milli Məclis deputatlığına namizəd Fəttah Heydərovun vəkilləri Bəhman Məmmədov və Aslan Cəlilov Kiçik Əmili kəndində Zalam, Mollaşıxalı, Sirt Yengicə, Böyük Əmili kəndlərindən olan seçicilər ilə görüş keçirmişlər.

Mərasimi Bəhman Məmmədov açaraq Fəttah Heydərovun keçdiyi şərəfli, mənalı, keşməkeşli, çətinliklərlə dolu həyat yolu barədə ətraflı məlumat verdi. Çıxışına davam edən natiq qeyd etdi ki, şəhərimizdə, o cümlədən qəsəbə və kəndlərimizdə aparılan abadlıq, quruculuq işlərinin təşəbbüskarı, bilavasitə iştirakçısı Fəttah Heydərov olmuşdur. O, təməlqoymadan istifadəyə verilənə kimi daim tikintilərə baş çəkmiş, lazımi köməkliyini əsirgəməmişdir. Fəttah müəllimin tövsiyyələri ilə rayonumuzda istehsal və xidmət müəssisələri tikilib istifdəyə verilmiş, bununla da yeni iş yerlərinin açılmasına nail olunmuşdur.

Deputatlığa namizədin vəkili Aslan Cəlilov qeyd etmişdir ki, o, Fəttah Heydərov ilk dəfə 1995-ci ildə namizədliyini irəli sürəndən bu seçkilərə kimi onun vəkili olmuşdur.

Fəttah müəllimin seçicilərlə görüşlərində iştirak etmişdir. Fəttah Heydərov səbrlə, təmkinlə seçicilərini dinləyir, onların qaldırdığı problemlərin həlli istiqamətində iş aparır.

Fəttah Heydərov ağsaqqallarla, gənclərlə daim görüşlər keçirmişdir. Bu görüşlərdə də ağsaqqalları və gəncləri diqqətlə dinləyir, gənclərə öz məsləhətlərini, tövsiyyələrini verir.

Sirr deyil ki, biz ağsaqqallar ona müraciət edərək bu dəfə də Milli Məclisə deputat seçilmək üçün öz namizədliyini verməsini xahiş etmişik. Sonra seçicilər ürək sözlərini bildirdilər.

(Ardı 8-ci səhifədə).